

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (23.564)

11 sentyabr 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


“İxrac ili” – 2020

## İxracın artımı iqtisadi gücün əsas göstəricisidir

*Son dövrlər həyata keçirilən mühüm tədbirlər, qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, müasir standartlara cavab verən yeni istehsal və xidmət sahələrinin yaradılması, rəqabətədavamlı məhsul növlərinin istehsalı muxtar respublikanın davamlı inkişafını təmin etmiş, ixrac potensialını artırmışdır.*



İxrac əsas makroiqtisadi göstəricilərdən biri olub iqtisadi aktivliyi və ümumi inkişafı xarakterizə edir. Bu gün Naxçıvan Muxtar Respublikasından Amerika Birləşmiş Ştatlarına, Türkiyə Respublikasına, Rusiya Federasiyasına, Gürcüstan Respublikasına, İran İslam Respublikasına, Türkmənistan Respublikasına, Oman Sultanlığına və digər ölkələrə məhsullar ixrac olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə 2020-ci ilin muxtar respublikada “İxrac ili” elan olunması yerli istehsalın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını daha da artırmış, ixracın genişlənməsinə və inkişafına yeni imkanlar yaratmışdır. İxrac potensialının artırılmasının əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“2020-ci il muxtar respublikamızda “İxrac ili” olduğu üçün çalışıb ona nail olmalıyıq ki, sahibkarlıq müəssisələrinin fəaliyyəti daha da genişlənsin, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın, istehsalın və ixracın həcmi artsın”.***

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, davamlı inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 2020-ci ilin yanvar-iyul aylarında 1 milyard 574 milyon 282 min 900 manat olmuşdur ki, bu da



2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 21,6 faiz çoxdur. Bu dövrdə sənaye məhsulu 14,5 faiz, kənd təsərrüfatı məhsulu 26,8 faiz artmışdır.

Əvvəlki dövrlərdə qəbul edilmiş digər Dövlət proqramları ilə yanaşı, hazırda icrası davam etdirilən “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” muxtar respublikanın kompleks inkişafına yeni imkanlar yaratmışdır.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və əlverişli biznes mühitinin yaradılmasının nəticəsidir ki, hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Sahibkarlara göstərilən hərtərəfli dəstək, ixracın təşviqi sahəsində aparılan ardıcıl tədbirlərin nəticəsi olaraq 10 ildən artıqdır ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınır. Bu tendensiya cari ilin yanvar-iyul aylarında da qorunub saxlanılmış, 189 milyon 399 min 700 ABŞ



dolları dəyərində müsbət saldo yaranmışdır. Belə ki, cari ilin yeddi ayında muxtar respublikanın xarici ticarət dövriyyəsi 256 milyon 878 min 100 ABŞ dolları təşkil etmişdir ki, bunun da 33 milyon 739 min 200 ABŞ dolları idxalın, 223 milyon 138 min 900 ABŞ dolları isə ixracın payına düşüb.

***Muxtar respublikanın ixrac potensialı, min ABŞ dolları***




Cari ilin yanvar-iyul aylarında ümumi ixracın 76 faizini və ya 169 milyon 573 min 300 ABŞ dollarını sənaye, 24 faizini və ya 53 milyon 565 min 600 ABŞ dollarını kənd təsərrüfatı məhsulları təşkil etmişdir.

Muxtar respublikada müasir gömrük infrastrukturunun yaradılması xarici ticarət əlaqələrinin inkişafına da öz müsbət təsirini göstərmiş, hazırda bu istiqamətdə Sədərək rayonunda Sədərək sərhəd gömrük-buraxılış məntəqəsinin tikintisi davam etdirilir.

Əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə həyata keçirilən mühüm tədbirlər qazanılmış nailiyyətlərin davamlılığını təmin olunmasına, muxtar respublikanın iqtisadi potensialının daha da gücləndirilməsinə, xarici ticarət əlaqələrinin genişlənməsinə hərtərəfli imkanlar yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib

*Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 15 sentyabr – Bilik Günü münasibətilə aztəminatlı, valideynlərini itirmiş, sağlamlıq imkanları məhdud uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib.*

Tədbirdə Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası nəticəsində bu qəbildən olan uşaqların təhsilə cəlbi sistemli xarakter alıb,



onlar məktəbəqədər, ümumtəhsil, məktəbdənkənar təhsil müəssisələrinə cəlb ediliblər.

Qeyd olunub ki, Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada Gözdən Əlillər üçün Xüsusi İbtidai Məktəb, Distant Tədris Mərkəzi, əmək terapiyası, audio və elektron kitabxana xidmətləri yaradılıb, nitq problemləri olan uşaqlar üçün defektoloji bölmə fəaliyyətə başlayıb, təhsilin təşkili ilə əlaqədar görmə qabiliyyəti məhdud uşaqlar üçün brayl kursları təşkil edilib. Yaradılan şəraitin nəticəsidir ki, sağlamlıq imkanları məhdud uşaqların böyük əksəriyyətinin həmyaşıdları ilə bərabər təhsilə cəlbinin davamlılığı təmin olunub.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxışında vurğulayıb ki, muxtar respublikada məktəblilərin hərtərəfli inkişafına göstərilən diqqət və qayğıdan sağlamlıq imkanları məhdud uşaqlar da kənarda qalmır. Onların ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarında və defektoloji bölmələrə, həmçinin məktəbdənkənar müəssisələrin dərnəklərinə, musiqi məktəblərinə, idmanın müxtəlif növləri üzrə qruplara və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müvafiq bölmələrinə cəlb edilməsi istiqamətində zəruri işlər görülür.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova diqqətə çatdırıb ki, muxtar respublikada dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Ali Məclis Sədrinin rəhbərliyi altında uşaqlar dövlət qayğısı ilə əhatələnərək onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili, intellektual və mənəvi inkişafı təmin olunmaqdadır. Eyni zamanda valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqlar, şəhid, aztəminatlı və çoxuşaqlı ailələrin uşaqları da diqqət və qayğı ilə əhatələnib. Belə ki, onların hüquqlarının qorunması, sosial müdafiələrinin gücləndirilməsi ilə bağlı proqramlar qəbul edilir və icra olunur.

Sonra hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 78, sağlamlıq imkanları məhdud 290, aztəminatlı ailələrin övladlarından isə 90 nəfər olmaqla, ümumilikdə, 458 şagirdə məktəbli geyim formaları, çanta və dərs ləvazimatları verilib.

Tədbirdə iştirak edən valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Həmin gün muxtar respublikanın rayonlarında da anoloji tədbirlər keçirilib.

## Təhsil işçilərinin onlayn konfransı keçirilib

***Dünən muxtar respublikanın təhsil müəssisələrinin rəhbərləri, Təhsil Nazirliyinin əməkdaşları, qabaqcıl müəllimlərin iştirakı ilə Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin sentyabr konfransı keçirilib.***

Onlayn konfransı giriş sözü ilə Təhsil naziri Rəhman Məmmədov açaraq təhsilə göstərilən dövlət qayğısından və qarşıda duran vəzifələrdən danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Ötən dövr ərzində 10 ümumtəhsil məktəbi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turizim-Diyarşünaslıq mərkəzlərində, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə innovativ dərnəklər yaradılıb. Hazırda da bu sahədə işlər davam etdirilir.

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb, 2019-2020-ci tədris ilində 4 müəllim Azərbaycan Respublikasının, 6 müəllim isə Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adlarına layiq görülüb, 4 müəllim və 1 dövlət qulluqçusu isə “Tərəqqi” medalı ilə təltif edilib. Bununla yanaşı, Ali Məclis Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə istedadı ilə seçilən şagirdlərdən 2-nin adı Naxçıvan Muxtar Respublikasının “Qızıl kitabı”na yazılıb, onlar xüsusi aylıq təqaüdə layiq görülüblər.

Qeyd edilib ki, ötən tədris ilində yaradılan şəraitdən səmərəli istifadə olunması diqqətdə saxlanıb, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlər, konfranslar keçirilib, müəllimlərin işə qəbulu prosesində şəffaflıq və obyektivlik təmin edilib.

Nazir vurğulayıb ki, təhsilə göstərilən dövlət qayğısının bəhrəsi olaraq 2019-2020-ci tədris ilində də şagirdlər müxtəlif səviyyəli bilik yarışlarında, buraxılış imtahanlarında, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda uğurlu nəticələr



qazanıb. 2019-2020-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasını bitirən məzunlardan 17-si qızıl, 17-si gümüş nişana, 34-ü fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 52 nəfər fərqlənmə attestatına layiq görülüb. Muxtar respublika üzrə şagirdlərimizdən 4-ü I, 7-si II, 13-ü isə III yer olmaqla, ümumilikdə, 24-ü respublika fənn olimpiadasında qalib gəlib. Məzunlarımızın buraxılış imtahanlarındakı nəticələri ötən illə müqayisədə xeyli artıb. Belə ki, 100-300 bal arası nəticə göstərən məzunların sayı 1490 nəfər olub ki, bu da ötən ildəki göstəricidən 10 faiz, yaxud 130 nəfər çoxdur. Buraxılış və qəbul imtahanlarının nəticələrinə əsasən ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 1437-si, yaxud 62 faizi 200 baldan yuxarı nəticə göstərib ki, onlardan da 275-i 500-dən yuxarı bal toplayıb. Ötən il ali məktəblərə qəbulda muxtar respublikanın 100 məktəbinin məzunları 500-700 arası nəticə göstərmişdirsə, cari tədris ilində bu nəticəni qazanan məktəblərin sayı 10 faiz artaraq 110 olub.

Təhsil naziri ümumtəhsil müəssisələrinin fəaliyyətindəki nöqsanlardan da danışaraq bildirib ki, tədris prosesindən səmərəli istifadə edən, şagirdlərin bilik səviyyəsinin daim yüksəldilməsinə çalışan pedaqoji kollektivlərlə yanaşı, tədrisin keyfiyyətinə lazımi şəkildə nəzarət etməyən məktəblər də vardır. Nazir mövcud nöqsanların aradan qaldırılması istiqamətində qarşıda duran vəzifələrdən də danışıb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Aqrar sahə dövlət siyasətinin uğurlarından bəhrələnməkdədir

*Günümüzdə kənd təsərrüfatı dünya əhalisinin əsas məşğuliyyət sahəsi hesab olunur və insanların ərzaq ehtiyaclarını yüksəkkeyfiyyətli məhsulla təmin etmək üçün mühüm vəzifələr daşıyır. Həyatın bütün dövrlərində hər hansı böyük və kiçik subyektlər, son nəticədə, kəndli əməyinə borclu olmuşdur. İqtisadiyyatın əsas sektoru kimi xeyli diqqət tələb edən bir sahə olmaqla, kənd təsərrüfatı qida ehtiyaclarını qarşılayır, sənayeni xam maddə ilə təmin edir. Bundan başqa, gəlirlərin yaradılması, ticarət əlaqələrinin formalaşdırılması və digər xidmətlər baxımından milli iqtisadiyyatın dayanıqlılığının təmin olunmasında xüsusi əhəmiyyətə malikdir.*





Kənd təsərrüfatı muxtar respublikamızın iqtisadiyyatında da aparıcı yeri tutur, özündə bitkiçilik (taxılçılıq, kartofçuluq), çoxillik bitkiçilik (yonca, soğan, sarımsaq, bostan-tərəvəz, və sair), meyvəçilik, üzümçülük, bağçılıq, heyvandarlıq (iribuynuzlu, xırdabuynuzlu), arıçılıq, quşçuluq təsərrüfatları, meyvə-tərəvəz məhsulları istehsalı və digər sahələri cəmləşdirir.

Aqrar sektor blokada şəraitində yaşayan muxtar respublikada ərzaq təhlükəsizliyinin bərqərar olunmasında əsas sahədir. Muxtar respublika ərazisinin coğrafi relyefinin mürəkkəb və iqliminin kəskin kontinental olması burada kənd təsərrüfatının inkişaf etdirilməsinin qarşısında böyük problemlər yaradır. Həm yayda, həm də qışda əkilib-becərilən meyvə və tərəvəz məhsullarının saxlanması xeyli diqqət tələb edir. Buna görə də istənilən mövsümdə istehlak tələbini yerli istehsalın hesabına ödəmək məqsədilə soyuducu anbarların, istixana obyektlərinin və sınaq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi daim diqqət mərkəzindədir.

Aqrar sahə üçün nəzərdə tutulmuş istiqamətlərdə proqramların qəbul edilməsi və icrasına nəzarət, büdcə və digər maliyyə-kredit təşkilatlarından əsaslı vəsaitlərin ayrılması, müxtəlif anbarların işə salınması, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi, bununla bərabər, yeni təsərrüfatçılıq sahələrinin (quşçuluq, balıqçılıq) yaradılması kənd təsərrüfatının mövcud vəziyyətinin əsas göstəriciləridir.

Digər tərəfdən son zamanlar aparılan işlərin səmərəsini yüksəltmək üçün mühüm tədbirlər də həyata keçirilmişdir. Aqrar sahədə maarifləndirmə işlərinin aparılması, regionlarda fermerlərlə mütəmadi görüşlər, Aqrar Sığorta Fondunun təsis edilməsi, “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi, süni mayalandırma proseslərinin sürətləndirilməsi, ailə təsərrüfatlarının genişləndirilməsi, bu istiqamətdə festivalların və yarmarkaların təşkil edilməsi muxtar respublikada kənd təsərrüfatının canlandırılması üçün əsas təşviqedici amillərdir.

Həyata keçirilmiş tədbirlər və yaradılan mexanizmin fəaliyyətinə diqqət yetirsək, qeyd etdiyimiz işlərin sübutunu da görə bilərik. Misal üçün, “Naxçıvan Aqroservis” ASC qısa müddət ərzində mövcud olmasına baxmayaraq, damazlıq iribuynuzlu heyvanların, dərman preparatlarının, kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların gətirilməsində, onların fermerlərə güzəştli şərtlərlə satılmasında mühüm rol oynamışdır. Yaradıldığı vaxtdan günümüzədək cəmiyyət tərəfindən muxtar respublikaya, təxminən, 3000-ə yaxın yeni texnika gətirilmişdir. Digər tərəfdən 2020-ci ildə muxtar respublikada Aqrar Sığorta Fondunun yaradılması kənd təsərrüfatında sığorta mexanizminin işə düşməsində, fermerlərin və sahibkarlıq subyektlərinin məhsullarının qorunmasında, təbii fəlakətlər zamanı dəyən zərərin vaxtında ödənilib məhsuldarlığın təmin olunmasında xeyli faydalı olacaqdır.

Aqrar sahənin heyvandarlıq və bitkiçilik istiqamətləri üzrə inkişafına nəzər salsaq, görərik ki, 2020-ci ilin yanvar-iyul aylarında muxtar respublikada 256 milyon 287 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 13673 ton, süd istehsalı 61361 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,4 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır. Bu göstəricilər regionda ərzaq təhlükəsizliyinin qorunması və daxili tələbatın tam ödənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edə bilərik ki, bu gün ölkəmizdə digər sahələrdə olduğu kimi, bu sahədə də xeyli innovativ işlərin görülməsi planlaşdırılır. İnstitusional islahatların aparılması, kənd təsərrüfatı konsepsiyasının hazırlanması, aqrar parkların təsis olunması önümüzdəki illərdə təsərrüfat sektorunun qarşısında xeyli geniş imkanlar yaradacaqdır.

**Eltun İBRAHİMOV**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Təbii qaza olan tələbat ödənilir



***Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq edilmiş iş planına əsasən ardıcıl tədbirlər görülmüşdür.***

Ötən ay muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən cəmi 143 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 140-ı əhali, 3-ü qeyri-əhali abonentidir. Hesabat dövründə qaz təsərrüfatında, xüsusilə qəza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığı diqqətdə saxlanılmış, yerli qaz istismar idarələrinin işçiləri Naxçıvan Regional Peşə Tədris Mərkəzində sentyabr ayının 1-dən başlanan qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursuna cəlb olunmuşlar.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, avqust ayında 48 qaz sayğacı quraşdırılmışdır. Bu işlər davam etdirilir.

Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer sahələrinə 24 saat aktiv olan 104 nömrəli qaynar xəttinə təbii qaz istehlakçılarından qazsızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 1191 çağırış daxil olmuşdur.

Ötən ay muxtar respublikanın qaz şəbəkəsində 623 qazsızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilmişdir.

Təbii qazın istifadəsinə nəzarət avqust ayında da diqqətdə saxlanılmış, muxtar respublikanın yaşayış məntəqələrində yerli icra hakimiyyəti, hüquq-mühafizə orqanlarının nümayəndələri və şəhər, rayon qaz istismar idarələrinin işçiləri ilə birgə intensiv olaraq reydlər keçirilmiş, aşkarlanmış nöqsanlara və sayğaca müdaxiləyə görə 1 abonentə cərimə tətbiq olunmuşdur.

Muxtar respublikada yerli qaz istismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Qaz İstismar Xidməti***

## Ekoloji tədbirlər təbiətin zənginləşməsinə xidmət edir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli təbii mühitin yaradılması, insanların sağlam yaşamasının təmin olunması məqsədilə həyata keçirilən ekoloji tədbirlər avqust ayında da davam etdirilib.*

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov və meşə fondu torpaqlarından istifadə, ətraf mühitin çirkləndirilməsi hallarına qarşı mübarizə məqsədilə 9 yoxlama-reyd keçirilmiş, 4 inzibati xəta qeydə alınaraq qanunauyğun tədbir görülmüşdür. Ay ərzində ekoloji monitorinqlər davam etdirilmiş, Naxçıvan şəhəri, Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 28-dən çox yaşayış məntəqəsi ərazisində su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması, həmçinin mərkəzi avtomobil yollarının kənarlarında yerləşən yaşıllıq zolaqlarındakı mövcud vəziyyət öyrənilmişdir. Ordubad rayonunun Dəstə və Vələver, Culfa rayonunun Yaycı və Gülüstan kəndlərində, Babək rayonunun Cəhri qəsəbəsində aparılan monitorinqlər zamanı tullantıların müxtəlif ərazilərdə yerləşdirilərək açıq vəziyyətdə saxlanıldığı qeydə alınmış, çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi olan tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında hesabat ayı ərzində Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 nümunə götürülmüş və 180 analiz aparılmış, sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması da diqqətdə saxlanılmış, Naxçıvan Sement Zavodunun ətrafında salınmış 100, yeni salınmış 2 hektarlıq püstə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, kimyəvi preparatlardan istifadə edilməklə ziyanvericilərə qarşı dərmanlama işləri aparılmışdır. Toxum tədarükü məqsədilə 650 kiloqramdan çox müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında muxtar respublikada ağac və bitki tələbatının yerli istehsal hesabına ödənilməsi üçün “İqlim otağı” və tingçilik təsərrüfatlarının imkanlarından geniş istifadə olunması ilə bağlı verilən tapşırığa əsasən tingliklərdə becərmə və qulluq işləri davam etdirilmişdir. Belə ki, 6,5 hektar sahədə suvarma, 3,9 hektar sahədə alaq, yeni yaradılacaq toxmacarlıq sahələrinin bir qismində şumlama işləri aparılmışdır. Yeni tinglərin yetişdirilməsi məqsədilə “İqlim otağı”na ardıc, şam, çinar və tuya toxumları verilmişdir.

Hesabat ayında Culfa rayonunun Dəmirli və Kola ərazisində yerləşən yaylaqlarda məskunlaşmış fermerlərlə fərdi görüş keçirilmiş və yaylaqlardan istifadə qaydaları haqqında maarifləndirici söhbətlər aparılmışdır.

Gənclərlə ekoloji işin səmərəli təşkili ötən ay da diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə birgə hazırlanmış tədbirlər planına uyğun olaraq “Ekoloji könüllülər” layihəsi çərçivəsində Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində təlim-təcrübə günü keçirilmişdir. “Təbiət naminə birləşək!” devizi altında ekologiya könüllülərinin iştirakı ilə keçirilən tədbirdə gənclərə mövcud flora və fauna ehtiyatları haqqında geniş məlumat verilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Ekologiya və Təbii Sərvətlər***
***Nazirliyinin mətbuat xidməti***

## Kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən avqust ayı ərzində kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar müşavirələr, tarla seminarları keçirilib.*

Həmçinin muxtar respublikada kartof yığımının qısa müddətdə başa çatdırılması, məhsulun Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və sahibkarların soyuducu anbarlarına təhvil verilməsi ilə əlaqədar maarifləndirmə işləri aparılıb. Biçindən sonra təkrar əkinlərin həyata keçirilməsi, əkin sahələrində aqrotexniki qulluğun düzgün və vaxtında aparılması, payızlıq taxıl əkinlərinə hazırlıqla əlaqədar növbəli əkin sisteminə əməl etməklə sahələrin seçilməsi, keyfiyyətli şumun qaldırılması, toxumun dərmanlanmasının əhəmiyyəti mövzularında torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahiblərinin iştirakı ilə tarla-seminar müşavirələri keçirilib.

Ötən ay nazirliyin əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mütəxəssisləri ilə birlikdə Ordubad və Culfa rayonları ərazisində torpaqların şorluluq dərəcəsi və eroziyası ilə bağlı monitorinqlər və planaalma işləri aparıblar.

Ay ərzində Babək rayonundan üzümlüklərdə və meyvə bağlarında məhsulun vəhşi arılardan qorunması ilə bağlı 16, Babək və Şərur rayonlarında təkrar əkinlərin aparılması ilə əlaqədar 19, payız calağının işlənməsi ilə bağlı 14, kartofun sadə üsullarla saxlanması ilə əlaqədar 21 nəfər nazirliyə müraciət edib, mütəxəssislər tərəfindən onlara lazımi tövsiyələr verilib.

Hesabat dövründə Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən Ordubad rayonunun Üstüpü, Darkənd və Aza yaşayış məntəqələrində torpaq tədqiqat işləri aparılıb, torpaq nümunələri götürülərək analiz olunması üçün laboratoriyaya verilib. Üç torpaq mülkiyyətçisi və ailə təsərrüfatı başçısı tərəfindən gətirilən 7 torpaq nümunəsi analiz olunaraq tərkibindəki qida maddələri barədə onlara məlumat verilib. Muxtar respublikada şoranlaşmış və eroziyaya uğramış torpaqların müəyyənləşdirilməsi üçün tədqiqat işlərinə başlanılıb.

Toxumçuluq və bitkilərin mühafizəsi idarəsinin mütəxəssisləri muxtar respublikanın rayonlarında ailə təsərrüfatı üzvləri, fermerlərlə kənd təsərrüfatı bitkilərinin başlıca xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri barədə fərdi qaydada maarifləndirici söhbətlər aparıblar. Müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə idarəyə gətirilən nümunələrə baxılıb, 40 təsərrüfat sahibinə lazımi məsləhət və tövsiyələr verilib. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilib, analizin nəticəsi ilə bağlı onlara analiz aktı təqdim olunub.

Payız-qış mövsümündə mal-qaranın saxlanması, arı ailələrinin qışlamaya hazırlanması, yarana biləcək xəstəliklərə qarşı profilaktik tədbirlərin aparılması məqsədilə sahibkarlarla fərdi qaydada maarifləndirici görüşlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı Nazirliyinin***
***mətbuat xidməti***

*Təbii sərvətlərimiz*

# Muxtar respublikamızın ərazisindəki böyük gil yataqları faydalı qazıntı kimi əhəmiyyətlidir

***Gillər havanın, küləyin, yağışın və digər atmosfer hadisələrinin qayalara (çöl şpatlarına) təsiri nəticəsində əmələ gələn “yağlı” torpaqdan ibarət minerallar qarışığıdır. Gillərin mineraloji tərkibində əsas rolu laylı quruluşa malik minerallar oynayır. Müxtəlif nisbətlərdə olan silisium – 4-oksid, alüminium-oksid kimi əsas minerallardan başqa, gillərin tərkibində andoluzit, hidroarqillit, diaspor, korund, monotermit, muksovit, narkit, pirotillit adlı minerallar da ola bilir. Başqa sözlə, gillərin tərkibində əsas komponentlərdən başqa, maqnezium, dəmir, sink, kobalt, fosfor, qızıl, mis, gümüş, kalsium və sair elementlərə malik komponentlər də olur.***

Planetimizdə külli miqdarda gil yataqlarına rast gəlmək mümkündür. Bu gillər tərkiblərinə, xassələrinə və rənglərinə görə bir-birindən fərqlənir, onların hər birinin özünəməxsus üstünlükləri vardır. Məsələn, ağ gil antiseptik təsirinə görə digərlərinə nisbətən üstünlük təşkil edir.

Bu faydalı qazıntılar üçün əsas və daha səciyyəvi xassələr aşağıdakılardır: su ilə qarışığı bulantı əmələ gətirir və xəmir kimi özüllü olur, suda şişmək qabiliyyəti var, gil xəmiri xam şəkildə ona verilən formanı alır və qurudulduqdan sonra da mühafizə edib saxlayır, yapışdırıcı və birləşdirici xassəsi var, müəyyən miqdarda su ilə doyduqdan sonra suyu özündən buraxmır, mübadilə oluna bilən ionlara, uduculuq (adsorbsiya) qabiliyyətinə malik olur və sair.

Sadaladığımız xassələr gilləri praktik baxımdan da faydalı edir. Təsadüfi deyil ki, onlardan müxtəlif məqsədlərlə istifadənin mümkünlüyü insanlara hələ lap qədim zamanlardan məlumdur. Bu, nəsillərdən-nəsillərə ötürülərək müasir dövrümüzə qədər gəlib çıxmış, getdikcə daha da genişlənmiş və yeni-yeni sahələri əhatə etmişdir.

İbtidai cəmiyyətdə Yer kürəsinin müxtəlif bölgələrində kustarçılıq inkişaf etdikcə insanlar onun yeni-yeni imkanlarını görür və görüləcək işin texnikasının təkmilləşdirilməsində əhəmiyyətini başa düşürlər. Həmin dövrlərdə əmək alətlərinin hazırlanmasında ağac və sümükdən başqa, daşdan da istifadə edilmişdir. Əmək bölgüsünün sonrakı inkişafı dulusçuluq sənətinin meydana çıxması ilə bağlı olmuşdur. Məhz bu dövrlərdə oddan ən vacib məişət əşyalarının hazırlanmasında istifadə edilməyə başlanmışdır. Bu isə, öz növbəsində, toplamaq, saxlamaq, daşımaq və sair üçün gildən saxsı qabların hazırlanmasına səbəb olmuşdur. Zaman-zaman gillərin tətbiq sahələri daha da genişlənmişdir. Müasir dövrdə gillərdən tikinti işlərində (kərpic, sement və sair istehsalında), dulusçuluqda rəssamlıqda, metallurgiya sənayesində, yağların və neft məhsullarının təmizlənməsində, kağız və rezin sənayesində, keramzit və aqloporit istehsalında, buruq quyularının qazılmasında qazma məhlulunun hazırlanmasında geniş istifadə edilir. Belə tətbiq sahələrindən biri də tibb və kosmetikadır.

Dünyanın bir çox digər bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası ərazisində də gillərin müxtəlif növləri yataqlar şəklində geniş yayılmışdır. Bu yataqlardan Şahbuz, Naxçıvan, Babək, Dəstə, Çeşməbasar, Kültəpə, Qabıllı yataqları rəsmi olaraq qeydə alınmışdır. Bu yataqların ümumi ehtiyatı 17.463.102 kubmetr təşkil edir. Həmin yataqlar haqqında qısa məlumatı oxucularımıza təqdim edirik.

*Şahbuz yatağı* Şahbuz şəhərindən 2 kilometr şimal-şərqdə, Qarababa kəndinin yaxınlığında yerləşir. Yatağın çöküntüləri bozumtul və tündboz rəngli gil və gilcələrdən təşkil olunmuşdur. Termoqrafik analizlərin nəticələrinə görə, gil materialı hidroslyuda və montmorillonit minerallarının qarışığından ibarətdir. İncə dispers hissəciklərin miqdarına görə gilcələr kobud dispers sistemlər qrupuna aiddir. Struktur tipinə görə qumlu-alevritli tipə aiddir. Gilin ərimə temperaturu 1170-1190$^{0}$C-dir. Şahbuz yatağının ehtiyatı 973.540 kubmetr təşkil edir. Bu yatağın gilləri normal istidən qısalma və suudma qabiliyyətinə malikdir. Yatağın hidrogeoloji və dağ-texniki şəraiti əlverişlidir. Gillərdən “100” markalı kərpic istehsalında istifadə etmək olar.

*Naxçıvan yatağı* Naxçıvan şəhərindən 2,5 kilometr şərqdə, Naxçıvan-Ordubad yolunun yaxınlığında yerləşir. Yataq geoloji quruluşca tünd-boz, çəhrayımtıl-boz rəngli gilcə, gil və qumlarla təmsil olunur.

Faydalı qatın birinci horizont üzrə qalınlığı 1,8-2, ümumi orta qalınlığı 4, örtük süxurların qalınlığı isə 0,2 metr təşkil edir. Kalsium-karbonatın miqdarı 48,8-22,2 faiz arasında dəyişir. Yatağın qalıq ehtiyatı 1.513 min kubmetrdir.

*Babək yatağı* Babək rayonu ərazisində, Naxçıvan şəhərindən 3 kilometr şimal-qərbdə yerləşir. Faydalı qat morfoloji cəhətdən layşəkilli olub, uzanma və düşmə istiqamətində dəyişməz qalınlığa, quruluşa və keyfiyyətə malikdir.

Gilin kimyəvi tərkibində əsas komponetlərlə yanaşı, dəmir, titan, kalsium, maqnezium, kükürd, natrium və kalium da iştirak edir. Göründüyü kimi, gil süxurları kimyəvi tərkibinə görə sənayenin tələblərinə tam cavab verir. Alüminium-oksidinin miqdarına görə gil turş, yüksək miqdarda rəngləyici oksidlər saxlayan qrupa aid edilir.

Babək yatağının gilləri normal istidən qısalma və suudma qabiliyyətinə malik olub, mexaniki möhkəmliyi 100-dən yuxarıdır. Babək yatağının gillərinin keyfiyyət göstəriciləri Şahbuz yatağına çox yaxındır. Buna görə də bu yatağın xammalının bazası əsasında zavod şəraitində “100” markalı kərpic istehsalı mümkündür. Yatağın ehtiyatları 11.150.357 kubmetr təşkil edir.

*Yaycı yatağı* Culfa rayonunun Yaycı kəndindən 4-4,5 kilometr şimalda yerləşir. Faydalı qat orta qalınlığı 4,6 metr olan qumlu gillərdən ibarətdir, həm qalınlığı (4,4 metrdən 4,8 metrədək), həm də keyfiyyətinə görə çox dayanıqlıdır. Yatağın süxuru qumlu-alevritli və gil hissəciklərindən ibarətdir. Gilin kimyəvi tərkibində əsas komponentlərlə yanaşı, dəmir, kalsium, maqnezium, kükürd, natrium və kalium da iştirak edir. Kimyəvi analizin nəticələrinə görə, Yaycı yatağının gilləri sənayenin tələblərinə tam cavab verir, bütün keyfiyyət göstəricilərinə görə 21-78-88 saylı səhə və 530-80 saylı dövlət standartlarının tələblərini tamamilə ödəyir və həmin gillərdən “100” markadan yuxarı kərpic istehsalında istifadə etmək olar. Yatağın ehtiyatları 1,5 milyon kubmetr təşkil edir.

*Dəstə yatağı* Ordubad rayonunun Dəstə kəndindən 1,5 kilometr şərqdə yerləşir. Faydalı qat üfüqi yatan layşəkilli gil və gilcə süxurlarından təşkil olunmuşdur. Gilin kimyəvi tərkibində əsas komponentlərlə yanaşı, dəmir, kalsium, kükürd, natrium və kalium da iştirak edir. Nəticələr Dəstə yatağı gillərinin sənayenin bütün tələblərini ödədiyini göstərir. Həmin gillər normal istidən qısalma və suudma qabiliyyətinə malikdir. Mexaniki möhkəmliyinə görə markası 100-dən yuxarıdır. Yatağın ehtiyatları 906.405 kubmetr təşkil edir.

*Çeşməbasar yatağı* Naxçıvan şəhərindən 12-13 kilometr cənub-şərqdə, köhnə kərpic zavodundan 8-9 kilometr məsafədə, Çeşməbasar kəndinin yaxınlığında yerləşir. Gilin səciyyəvi xüsusiyyəti onun hər yerdə qırmızımtıl-boz rəngdə olmasıdır. Tərkibində isə aşağıdakı minerallar: montmorillonit, hidroslyuda, kaolinit, kvars, kalsit, bəzən isə kristobolit vardır. Yatağın ehtiyatları 3.435 min kubmetr təşkil edir. Hazırda yataq kərpic istehsalı məqsədilə istismar olunur.

*Kültəpə yatağı* Babək rayonu ərazisində, Naxçıvan şəhərindən 14-15 kilometr şimal-şərqdə, Vayxır Su Anbarından 7-8 kilometr cənubda, Naxçıvançayın sol sahilində yerləşir. Faydalı qat layşəkilli gil və gilcə çöküntülərindən ibarət olub üfüqi yatım təşkil edir. Gilcə-gil qatının müxtəlif intervallarında bozumtul rəngli qum-çınqıl çöküntülərinə rast gəlinir. Faydalı qatın daxilində bu cür 3 lay var. Tədqiqatlar göstərir ki, gilcə-gil qarışığı “İ-36-66 saylı hidrotexniki tikinti işləri üçün mineral tikinti materiallarının sınaqlaşdırılması və kəşfiyyatı üzrə təlimat”ın tələblərinə cavab verir və bənd tikintisi işlərində doldurucu xammal kimi istifadə oluna bilər. Yatağın hidrogeoloji, mühəndis-geoloji və dağ-texniki şəraiti çox əlverişlidir, ehtiyatları 1.146,8 min kubmetr təşkil edir. Yataq istismar olunmuşdur.

*Qabıllı yatağı* Kəngərli rayonunun Qabıllı kəndindən 100 metr şərqdə yerləşir. Alt və orta sarmat çöküntülərinin görünən qalınlığı 200-250 metrdir. Qabıllı gili yaşılımtıl-boz, sarımtıl-boz rənglərdə olur. Oda davamlılığına görə bu gillər asan əriyən gillər qrupuna aid olub, ərimə temperaturu 13500$^{0}$C-dən aşağıdır. Kimyəvi analizin nəticələrinə görə, gillərdə silisium 4-oksidin miqdarı yüksək olmayıb, təsnifata görə turş gillər qrupuna aiddir. Onlar yüksək miqdarda kalsium-oksid, maqnezium-oksid və rəngləyici oksidlərin (dəmir 3-oksid) olması ilə seçilir. Yatağın ehtiyatları 1.439 min kubmetr təşkil edir.

Muxtar respublikada çətin əriyən gillərin yataq və təzahürləri də vardır. Bunlara Pirigöl yatağını, Kükü və Batabat təzahürlərini misal göstərmək olar. Çox güman ki, Naxçıvanda keramika istehsalının çox qədim tarixə gedib çıxmasının səbəbi də məhz bölgədə zəngin gil yataqlarının olması ilə bağlıdır. İlk keramika nümunələri Neolit dövrünə aiddir. Həmin saxsı materialları hazırlanma texnologiyası, forma və çeşid müxtəlifliyinə görə seçilirdi. Təsadüfi deyil ki, eramızın X-XII əsrlərində yüksək inkişaf etmiş dulusçuluq sənəti Azərbaycanın bir neçə şəhərində, xüsusilə də Naxçıvanda cəmlənmişdi (ərazidə aparılan arxeoloji qazıntılar da bunu deməyə əsas verir).

Məlumdur ki, gillərdən tarixən yuyucu vasitə kimi də istifadə edilib. Hazırda yuyucu vasitə kimi üzvi maddələr əsasında alınmış saysız-hesabsız sintetik vasitələr mövcud olsa da, son dövrlər bu məqsədlə gillərə maraq yenidən artmaqdadır.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun laboratoriyasında Qabıllı gili əsasında qabları və saçları yumaq üçün gil tozu və pastası hazırlanmışdır. Qeyd edək ki, gil tüklərin dibini bərkitməklə yanaşı, saçlara yumşaqlıq və parlaqlıq verir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan ərazisində gillərin bu qədər zəngin yataqlarının mövcudluğunu hələ orta əsrlərdən başlayaraq bölgəmizdə dulusçuluq sənətinin yüksək inkişaf etdiyini və gillərin digər çoxsaylı faydalı xassələrə malik olduğunu nəzərə alaraq gillərin bir daha ətraflı tədqiqini və onların mümkün tətbiq sahələri ilə bağlı təkliflər verməyimizi bir vəzifə kimi qarşımızda qoymuşdur. Bunu nəzərə alaraq institutumuzun əməkdaşları tərəfindən aparılan tədqiqatlar sırasına Naxçıvan Muxtar Respublikası ərazisində geniş yayılmış müxtəlif gillərin tədqiqi də daxil edilmişdir. Yuxarıda verilən məlumatlardan da göründüyü kimi, bunun üçün öncə gillər, onların əmələ gəlməsi prosesləri, kimyəvi və mineraloji tərkibləri, mühüm xassələri, məlum tətbiq sahələri və sair haqqında da lazımi ədəbiyyat materialları toplanmış və təhlil edilmişdir.

*Əsas tədqiqat obyekti kimi seçdiyimiz Qabıllı yatağının mineral tərkibi müəyyən olunmuş, dəqiq kimyəvi tərkibinin təyin edilməsi üçün ondan Bakı şəhərində fəaliyyət göstərən müvafiq elmi-tədqiqat institutlarına nümunələr verilmiş, ilkin analizlər aparılmış, spektral analizi ilə bağlı əlavə məlumatlar əldə olunmuşdur. Alınmış nəticələr ətraflı təhlil edilərək gillərin tətbiqi ilə bağlı işlərin həyata keçirilməsi yolları araşdırılmaqdadır.*

**Tofiq ƏLİYEV**
***AMEA-nın müxbir üzvü***
**Bayram RZAYEV**
***kimya elmləri doktoru***
**Əhməd QARAYEV**
***kimya üzrə fəlsəfə doktoru, dosent***

# Əyləncəli idman oyunları üzrə birincilik keçirilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Atletika Federasiyasının təşkilatçılığı ilə məktəblilər arasında əyləncəli idman oyunları üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*



Oyunları keçirməkdə məqsəd bədən tərbiyəsi və idmanın məktəblilər arasında kütləviliyinin, məktəblilərin fiziki sağlamlığının və idman vərdişlərinin artırılması, ümumtəhsil müəssisələrində fiziki tərbiyə fənninin tədrisinin təkmilləşdirilməsi, onlar arasında idman və dostluq əlaqələrinin möhkəmləndirilməsindən ibarət olub.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən oyunlarda 6 komanda iştirak edib və komandaların tərkibi 5 idmançıdan, idman müəllimindən ibarət olub. Qaydalara əsasən məktəblilər əyləncəli idman oyunları olan “Tops-1”, “Meqa” və “Cəngavərlər döyüşü” mərhələlərində mübarizə aparıblar.

Oyunların yekun nəticəsinə əsasən daha çox bal toplayan Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin “Polad” komandası qalib adını qazanıb. 16 nömrəli tam orta məktəbin “Zirvə” komandası ikinci, Heydər Əliyev adına tam orta məktəbin “Qələbə” komandası isə üçüncü olub.

Mükafatlandırma mərasimindən öncə çıxış edən Təhsil naziri, Atletika Federasiyasının sədri Rəhman Məmmədov bildirib ki, muxtar respublikamızda idmanın inkişaf sahəsində mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində ötən müddət ərzində 200-dən çox müasirtipli məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu məktəblərdə müasir tələblərə cavab verən idman zalları və açıq idman qurğuları yaradılıb. Muxtar respublikada idmanın kütləviliyinin artırılması, bu sahə üzrə istedadlı uşaqların aşkar olunması və onların qabiliyyətlərinin inkişaf etdirilməsi sahəsində işin keyfiyyətinin yüksəldilməsi diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında qeyd edib ki, artıq diyarımızda bədən tərbiyəsi və idmanla məşğul olmaq gündəlik həyat tərzinə çevrilib. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində bu gün Naxçıvanda idman ən yüksək səviyyədə inkişaf etməkdədir. “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirələrdə və “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nda bu sahənin inkişafı ilə bağlı qarşıya konkret məqsədlər qoyulub. Gənclər və İdman Nazirliyi aidiyyəti qurumlarla birgə əhalidə sağlam həyat tərzinin formalaşdırılması, istedadlı idmançıların üzə çıxarılması, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılması məqsədilə bir çox ənənəvi və yeni idman tədbirləri həyata keçirir.

Çıxış edənlər qalib komandaları və idmançıları təbrik edib, yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, əyləncəli idman oyunları mərhələli formada muxtar respublikanın şəhər və rayonlarında mövcud olan müvafiq idman stadionlarında keçiriləcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

# Tənha olsam da, kimsəsiz deyiləm...

Özünü dərk edəndən hər ötən gün daha da yaxşı yaşamaq, məqsədinə çatmaq, arzularını gerçəkləşdirmək üçün səylə çalışırsan. Həyatın qayğılarına o qədər başın qarışır ki, günlərin, ayların necə keçdiyinin fərqində belə, olmursan. Zaman qatarı isə dayanmadan hərəkət edir. Yaxınlarının xeyrində, şərində iştirak edir, yaxşı günün də, pis günün də yoldaşı olursan. Keçən hər gün isə ömür ağacından bir yarpaq qoparır. İllər su kimi axıb gedir, həyatın güllü-çiçəkli yazı, barlı-bəhərli yayı öz yerini xəzanlı payıza, çovğunlu qışa verir. Bircə dəqiqəlik ötənləri düşünəndə yaşananlar, sanki kinolent kimi gözünün önündən gəlib keçir. Elə bil dünən idi küçə-bacada uşaqlarla qaçdı-tutdu oynamağın, məktəbdə parta arxasında şagird yoldaşınla müəllim duymasın deyə, astaca pıçıldaşmağın. Unudulmaz xatirələrdən qəhərlənib gözlərin dolduqda isə ötənləri paylaşmaq üçün ətrafında bircə adam da tapılmır. Tənhalığı hiss etdiyin an qədirbilən dövlətin qayğısı səni həyata bağlayır. Başa düşürsən ki, tənha olsan da, kimsəsiz deyilsən, – deyən Fəridə nənənin gözlərindən axan yaş ötən günlərinin yeganə yadigarı olan şəkilləri, sanki kimdənsə qoruyurmuş kimi bərk-bərk saxladığı əllərinin üzərinə gilələnir... Naxçıvan şəhərinin Atabəylər məhəlləsi, bina 5, ev 43-də bir vaxtlar tənhalıq məngənəsində sıxılan, indi isə dövlətimizin qayğısı ilə firavan həyatını yaşayan 82 yaşlı, nurani çöhrəsində ılıq bir təbəssüm gəzdirən Fəridə xanım ilə keçmişi vərəqləyir, xatirələrə işıq salırıq...



Onun haqqında oxucularımıza qısaca məlumat verərək deyim ki, Fəridə Tağıyeva 1938-ci il iyulun 1-də Ordubad şəhərində zəhmətkeş ailədə dünyaya göz açıb. Bir bacı, bir qardaş olublar. Atası, anası sovetlər dönəminin əzab-əziyyətli günlərində min bir zəhmət hesabına əlləşib-vuruşub onları böyüdüb. Fəridə də gənc yaşlarından zəhmətə qatlaşaraq valideynlərinə dəstək olub. Bir müddət Ordubad rayonundakı ipək fabrikində çalışıb. Atası dünyasını dəyişdikdən sonra ailənin qayğısı xeyli çoxalıb. 1970-ci ildə Nadir Dünyamalıyevlə ailə həyatı quran Fəridə həyat yoldaşının işi ilə əlaqədar Naxçıvan şəhərinə köçüb. Tale elə gətirib ki, övladı olmayıb. Gənclik illərində olduğu kimi, evlilik dönəmində də həyat yoldaşı ilə çiyin-çiyinə verib yorulmadan çalışan Fəridə bu birliyin sayəsində ev-eşik sahibi olub. Lakin 1980-ci ildə həyat yoldaşı dünyasını vaxtsız dəyişdikdən sonra evdə təktənha yaşamağa məcbur qalıb. Çəkdiyi ağrı-acılara baxmayaraq, əsl Azərbaycan qadını kimi başını dik tutub, öz halal zəhməti hesabına gün-güzəran keçirib. Ölkəmizin müstəqillik əldə etməsi ilə hər bir Vətən övladı kimi, Fəridə Tağıyevanın da çöhrəsinə təbəssüm qonub. Elə bu səbəbdəndir ki, müstəqillik illərində zəhmətsevərliyi birə-beş artıb. Lakin zaman keçdikcə yaş öz sözünü deyib, gündən-günə əmək qabiliyyəti azalıb. Bu zaman isə qədirbilən dövlətimiz xeyirxahlıq əlini ona uzadıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası istiqamətində görülən tədbirlər sayəsində bütün ahıl vətəndaşlar kimi, Fəridə Tağıyevanın da sosial problemləri öz həllini tapıb. 2012-ci ildən etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təyinatı ilə Nübar İsmayılova Fəridə Tağıyevaya evində sosial xidmət göstərir. Xidmətə yeməklərin hazırlanması, mənzilin səliqəyə salınması, evə lazım olan zəruri ərzaq, sənaye və məişət mallarının alınması, kommunal xərclərin ödənişinin təşkil edilməsi, ehtiyac olduqda evə həkim dəvət olunması və digər məişət qayğıları daxildir.

Fəridə xanım göstərilən xidmətdən ağızdolusu danışaraq deyir ki, Nübar İsmayılovanı ilk gündən doğma övladı kimi qəbul edib. Bu barədə söhbət açır:

– Övladım olmasa da, yaxşı bilirəm ki, o, valideyn üçün dünyada ən şirin nemətdir. Ata, ana gecəgündüz övladın nazını çəkir, min bir zəhmət hesabına onu böyüdür. Lakin təəssüf ki, bəzi övladlar böyüyəndən sonra valideynlərinin üzünə ağ olur, haqqı yerə vurur, onu həyatın çətinlikləri ilə tənha buraxır. Halbuki müqəddəs kitabımız "Qurani-Kərim"də, eləcə də milli kimliyimizin açarı olan "Kitabi-Dədə Qorqud" dastanında ataya, anaya yüksək qiymət verilir, övladın valideyninin daim qayğısında durmasının vacibliyi vurğulanır. Televiziya ekranlarında tez-tez valideynlərin övladları tərəfindən tərk edilməsi hallarını görəndə ürəyim sızlayır. Dövlətimin mənə göstərdiyi qayğıdan da yerlə-göy qədər razıyam. Nübar da mənim bütün ehtiyaclarımı vaxtlı-vaxtında yerinə yetirir.

Fəridə Tağıyeva ilə söhbət əsnasında ona mehriban və qayğıkeşliklə yanaşan, hər sözünə saleh övlad kimi diqqətlə qulaq asan Nübar İsmayılovanın bu cür davranışı mənə xoş təsir bağışlayır. O da söhbətə qoşularaq deyir ki, Fəridə xanımı doğma anam qədər çox sevirəm. Bir-birimizə o qədər bağlanmışıq ki, bircə gün belə, ayrı qala bilmirik. Ondan uzaqda olanda da tez-tez zəng vurur, hal-əhvalını soraq alıram. Onu da qeyd edir ki, yaşı çox olmasına baxmayaraq, əli zirəkdir, səliqə-sahmanına söz ola bilməz. İşi qurtarandan sonra oturub ana-övlad kimi dərdləşirik. Onun məsləhətinə qulaq asanda xeyir tapıram. Fəridə xanım kimi ahılları görəndə valideynlərini tərk edən övladları daha çox qınayıram. Fikrimcə, biz valideynlər övladlarımızı erkən yaşdan ailə dəyərlərimizə uyğun düzgün tərbiyə etsək, belə xoşagəlməz hallar yaşanmaz.

Ata-anasını ahıl yaşda buraxıb gedənlərə xitabən deyirəm ki, bu gün ətrafımızda valideyn sevgisinə həsrət qalan yüzlərlə övlad var. Onların gecə-gündüz kaş ki ata-anam sağ olaydı, daim qulluğunda duraydım dediyini düşünün, əlinizdə olan böyük dəyərin qədirqiymətini bilin ki, sonra kaş ki deməyəsiniz. Unutmayaq ki, hər birimiz yaşlanmağa məhkumuq. Valideynlərini tənha qoyub gedən, onları köməksiz halda buraxan övladlar bilməlidir ki, həyatın hazırladığı bu imtahandan onlar da keçəcək...

✍ **Nail ƏSGƏROV**

# Yeni futbol mövsümünə hazırlıqla bağlı müzakirələr aparılıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının (NFF) nümayəndələrinin şəhər və rayon gənclər və idman idarələrinin rəislərinin görüşü olub. Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında keçirilən görüşdə lisenziyalaşdırma və qeydiyyat, uşaq futbolu, məşqçilik və gündəmə aid digər məsələlərlə bağlı məlumat verilib, fikir mübadiləsi aparılıb.

Federasiyanın sədr müavini Sakit Rzayev yeni futbol mövsümünə hazırlıqla bağlı icra olunan və nəzərdə tutulan işlərdən, gənclər və idman idarələri ilə əməkdaşlığın əhəmiyyətindən danışıb. "Bölgələrdə istedadlı futbolçuların üzə çıxması, peşəkarlaşmasını istəyiriksə hər birimiz bunun üçün səylə çalışmalıyıq", – deyən sədr müavini birgə fəaliyyət mexanizmi nəticəsində işlərin daha rahat və planlı irəliləyəcəyinə inandığını bildirib.

NFF-nin böyük məşqçisi Əsgər Abdullayev bu mövsümdən etibarən keçiriləcək azyaşlıların futbol liqalarından bəhs edərək uşaq futboluna hər kəsin böyük məsuliyyətlə yanaşmalı olduğunu diqqətə çatdırıb: "Müəyyən edilmiş zaman ərzində məqsədlərimizə nail olmaq istəyiriksə, səylərimizi bir qədər də artırmalıyıq. Məqsədimiz muxtar respublikanın yığma komandası hesab etdiyimiz "Araz-Naxçıvan"ın gələcək heyətində yerli futbolçuların üstünlük təşkil etməsi və bu yolla onların karyera imkanlarını artırmaqdır. Bu istiqamətdə, həmçinin yerli məşqçilərin də rolu böyükdür".

Görüş zamanı bildirilib ki, 21 sentyabr tarixinə AFFA mütəxəssislərinin iştirakı ilə məşqçilər üçün "C" kateqoriyalı məşqçilik kursu da nəzərdə tutulur. Şərur Olimpiya İdman Kompleksində keçiriləcək kurs 3 həftəlik müddəti əhatə edəcək. Kursu uğurla bitirənlərə lisenziyalar təqdim olunacaq. Federasiya tərəfindən onlara şəhər və rayonlardakı uşaq futbolu bölmələrinə təyinat veriləcək.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

# Profilaktik tədbirlər davam etdirilir

Naxçıvan şəhərində pandemiyaya qarşı növbəti profilaktik tədbirlər həyata keçirilib. Belə ki, Naxçıvan şəhərinin əsas küçə və yolları, Heydər Əliyev prospekti, Əliabad qəsəbəsi, Xətai məhəlləsi, "11-ci" məhəllə, Naxçıvan Müəllimlər İnstitutu, Heydər Əliyev Sarayı, Heydər Əliyev Muzeyi, Əcəmi Seyrəngahı, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Cümə məscidi, Naxçıvan Muxtar Respublikası Təhsil və Ədliyyə nazirlikləri və ətrafları, "Gənclik" Mərkəzi, Doğum Mərkəzi, Səhiyyə Nazirliyi, Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi, Dövlət Gömrük Komitəsi dezinfeksiya edilib.



Dezinfeksiya tədbirlərinə 2 xüsusi qurğu quraşdırılmış yanğınsöndürmə avtomobili, Dövlət Baytarlıq Xidmətinin 2 xüsusi təyinatlı dezinfeksiya avtomobili və 33 nəfər şəxsi heyət cəlb olunub.

Həmçinin Dövlət Baytarlıq Xidmətinin xüsusi təyinatlı dezinfeksiya avtomobilləri və dezinfeksiya qrupları cəlb edilməklə Heydər Əliyev prospektində 11, Həsən Əliyev küçəsində 1, Atatürk küçəsində 1, "19-cu" məhəllədə 1, Nizami küçəsində 13, Əcəmi məhəlləsində 9 bina olmaqla, ümumilikdə, 36 ictimai yaşayış binasının girişləri, ətrafı və zirzəmisi 0,5 faizli formalin məhlulu ilə dezinfeksiya olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Bələdiyyə torpaqlarının monitorinqi keçirilib



Bələdiyyələrin kənd təsərrüfatı təyinatlı torpaqlarının icarəyə verilməsi zamanı qanunvericiliyin tələblərinin gözlənilməsi nəzarətdə saxlanılmalıdır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşlarından ibarət yaradılmış işçi qrupu, Şərur Rayon İcra Hakimiyyətinin nümayəndələrinin də iştirakı ilə rayon ərazisində fəaliyyət göstərən yerli özünüidarəetmə orqanlarının mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların qanunvericiliyə uyğun icarəyə verilməsinin monitorinqi aparılıb. İşçi qrup bələdiyyə sədrləri ilə görüşüb və icarəyə veriləcək torpaq sahələrinə baxış keçirib. Monitorinq zamanı qeyd edilib ki, muxtar respublikamızda aqrar sahədə həyata keçirilən islahatlar kənd təsərrüfatının inkişafına, kəndlinin həyat şəraitinin yaxşılaşmasına səbəb olub. Ölkəmizdə bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsi nəticəsində bələdiyyə torpaqlarının fiziki və hüquqi şəxslərə icarəyə verilməsi onlardan istifadə imkanlarını genişləndirib.

Vurğulanıb ki, torpağın icarəyə verilməsi ilə bağlı məsələlərin qanunvericiliklə tənzimlənməsi torpağın icarəyə verilməsi hüququnun həyata keçirilməsinə geniş imkanlar yaradır. Torpaq sahəsi üzrə bağlanan icarə müqaviləsində tərəflərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, "Torpaq icarəsi haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarının normalarında təsbit olunub. Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsi yalnız bələdiyyənin qəbul etdiyi qərarlar vasitəsilə rəsmiləşdirilməli, icarəyə verilən torpaq sahələri ilə əlaqədar yazılı müqavilələr tərtib olunmalıdır.

Keçirilən monitorinq zamanı torpaq icarəsi haqqında münasibətlərin pozulmasına görə qanunvericiliklə nəzərdə tutulan məsuliyyətlər haqqında iştirakçılara geniş məlumat verilib.

Monitorinqlərin aparılması davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***


## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***1. Pedaqogika və psixologiya kafedrası üzrə:***
- Professor – 1 yer (0,5 ştat)
- Baş müəllim – 1 yer (1 ştat)
- Baş müəllim – 2 yer (hər biri 0,5 ştat)

***2. Dillər və ədəbiyyat kafedrası üzrə:***
- Professor – 1 yer (1 ştat)
- Dosent – 1 yer (1 ştat)
- Baş müəllim – 1 yer (1 ştat)
- Müəllim – 1 yer (1 ştat)

***3. Humanitar və ictimai fənlər kafedrası üzrə:***
- Baş müəllim – 1 yer (0,5 ştat)

***4. İncəsənət kafedrası üzrə:***
- Baş müəllim – 1 yer (1 ştat)
- Baş müəllim – 1 yer (0,5 ştat)

***5. Ali riyaziyyat və informatika kafedrası üzrə:***
- Dosent – 1 yer (1 ştat)
- Müəllim – 1 yer (0,5 ştat)

***6. Riyaziyyat və onun tədrisi metodikası kafedrası üzrə:***
- Dosent – 1 yer (1 ştat)

***7. Ümumi fənlər kafedrası üzrə:***
- Dosent – 1 yer (0,5 ştat)
- Dosent – 1 yer (1 ştat)
- Müəllim – 2 yer (hər biri 1 ştat)

Mövcud təlimati tələblərə uyğun olaraq müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına ərizə ilə birlikdə bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2***
***Naxçıvan Müəllimlər İnstitutu Rektorluq***
***Əlaqə telefonu: (036) 545-32-02***

## *İtmişdir*

Şərur rayon Qarxun kəndində yaşamış Abdinov Möhsüm Abbasəli oğlunun adına verilmiş JN-554$^{A}$ və JN-554$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Zeyvə kənd sakini Hüseynov Həşim Abbas oğlunun adına verilmiş JN-890 inventar nömrəli "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

* * *

Şərur şəhərində yaşamış İsmayılov Əli Hüseyn oğluna məxsus K.Seyidov küçəsindəki 48 nömrəli mənzilə 17 dekabr 1993-cü ildə verilmiş 4/4 nömrəli order itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 680**